# Əsas prioritet vətəndaş amilidir

***Bu gün tam əminliklə deyə bilərik ki, son illər rayonumuz ildən-ilə artan uğurlarıyla, əldə edilən nailiyyətlərlə inkişafa doğru sürətlə addımlayır. Qəbələdə aparılan genişmiqyaslı abadlıq, tikinti-quruculuq işləri, təhsil, səhiyyə, mədəniyyət, idman, eləcə də digər sahələrdə əldə edilən yeniliklər rayonumuzun gündən-günə inkişaf etməsindən xəbər verir.***

***Ötən bu müddət ərzində dəyişməyən bir şey var ki, o da vətəndaş amilinin ön planda olmasıdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin kənd sakinləri ilə keçirdiyi səyyar görüşlər bu dediklərimizin əyani sübutudur.***

***Ənənə halını alan həmin səyyar görüşlərdə icra başçısı sakinlərin müraciətlərini dinləyir, qaldırılan hər bir məsələyə diqqət və qayğı ilə yanaşır.***

## Böyük Pirəli kəndi





Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Böyük Pirəli kənd sakinləri ilə keçirilən səyyar görüş-qəbulunda RİH-nin məsul işçiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak edib.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə sosial sahədə aparılan islahatlar və iqtisadi nailiyyətlər barədə geniş məlumat verib, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, bununla bağlı görülən işlərdən danışıb.

Səyyar görüşdə iştirak edən sakinlər rayonda, o cümlədən Böyük Pirəli kəndində görülən quruculuq işləri ilə bağlı dövlətimizin başçısına öz razılıqlarını ifadə ediblər.

Onlar əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, ölkə vətəndaşlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Tədbirdə çıxış edən kənd sakinlərindən Qismət Yunusov, Güloğlan Mahmudov, Nüşabə Bəkirova, Qəhrəman Məmmədhüseynov, Comərd Hidayətov və başqaları yaşayış məntəqəsində yeni artezian quyusunun qazılmasını, işıq dirəklərinin dəyişdirilməsini, kəndin mərkəzindən keçən çayın yatağının təmizlənməsini, ərazidə əlavə transformatorun quraşdırılmasını, uşaq bağçasının açılmasını və təzə salınmış yaşayış massivinə qaz xəttinin çəkilməsini xahiş ediblər.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib və icrasını nəzarətə götürüb.

## Mirzəbəyli kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti görüş-qəbulu Mirzəbəyli kənd sakinləri ilə keçirilib.

RİH-nin məsul işçilərinin, hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatları rəhbərlərinin və kənd sakinlərinin iştirak etdikləri görüşdə rayon icra hakimiyyətinin başçısı son illər Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda həyata keçirilən sosial-iqtisadi layihələrdən söhbət açıb.

Qeyd edilib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq işləri aparılır - yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr icra olunur.

Diqqətə çatdırılıb ki, görülən bütün bu işlər, həyata keçirilən tədbirlər yalnız bir amala -- əhalimizin yaxşı yaşamasına, insanlarımızın məşğulluğu üçün iş yerlərinin yaradılmasına, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edir.



Son illər digər kəndlərimiz kimi bu yaşayış məntəqəsinə də qaz xəttinin, asfalt yolun çəkildiyini, sakinlərin elektrik enerjisi və su təchizatının daha da yaxşılaşdırılması istiqamətində xeyli işlər görüldüyünü vurğulayan RİH-nin başçısı yaxın vaxtlarda daxili yolların hamarlanması, kəndin mərkəzindən keçən çayın yatağının qum-çınqıldan təmizlənməsi və sahilbərkitmə işləri ilə bağlı tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Sakinlər onlara göstərilən qayğıya, rayonumuzda və Mirzəbəyli kəndində aparılan abadlıq-quruculuq işlərinə görə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



Görüşdə çıxış edən kənd sakinlərindən Firudin Bəkirov, Əlikram Rəsulov, Ədalət Qaçayev, Dünyamalı Qaçayev və başqaları məktəb binasının əsaslı təmir olunmasını, içməli və suvarma suyunun təminatının daha da yaxşılaşdırılmasını, köhnəlmiş elektrik dirəklərinin, naqillərin dəyişdirilməsini xahiş ediblər.

Görüşdə sakinlər tərəfindən verilən təkliflərin və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**“Qəbələ”**

# Təlim keçirilib

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində Avropa İttifaqının Azərbaycanın kənd yerlərində sahibkarlığın inkişafına dəstək layihəsi çərçivəsində qadın sahibkarlar üçün "Sahibkarlıq və biznesə başlama haqqında" təlimlər keçirilib. Tədbiri giriş sözü ilə açan AQSİA-nın meneceri Günay Həsənli Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSİA) haqqında tədbir iştirakçılarına geniş məlumat verib. Rayonda yaşayan qadın sahibkarlara Azərbaycanda qadın sahibkarlığının inkişafı haqqında məlumat vermək, onlarla əməkdaşlıq imkanları genişləndirmək, qadınlar arasında sahibakarlığın inkişafına dair təbliğat işlərini gücləndirmək və töhfə vermək məqsədi ilə keçirilən iki günlük təlim çıxışlar və müzakirələrlə davam etdirilib.

**“Qəbələ”**

# Yerli potensiallar qiymətləndirilir

Qəbələdə “Azərbaycan Respublikasında Kənd Yerləri və Regional İnkişafa Dəstək Proqramı”-nın icrasına texniki yardım layihəsi çərçivəsində işçi qrupunun tədbiri keçirilmişdir. Aidiyyatı dövlət qrumlarının, qeyri-hökümət təşkilatlarının və sahibkarların nümayəndələri təmsil olunduğu tədbirin keçirilməsində məqsəd Ərazi İnkişaf Planının hazırlanması üçün yerli potensialın qiymətləndirilməsi olmuşdur.

Yığıncaqda qeyd edilmişdir ki, “Azərbaycan Respublikasında Kənd Yerləri və Regional İnkişafa Dəstək Proqramı”-nın icrasına texniki yardım layihəsi 2017-ci ilin yanvarından başlayaraq Avropa İttifaqının maliyyə dəstəyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Əməkdaşlığı ilə həyata keçirilir. Layihənin əsas məqsədi Azərbaycanda iqtisadiyyatın diversifikasiyasına və regionların davamlı inkişafına dəstək verilməsi, regionlar arasında sosial-iqtisadi bərabərsizliyin azaldılması, dövlət proqramlarının icrası və idarə olunmasında mərkəzi və yerli dövlət orqanlarının potensialının artırılmasıdır.



Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev iştirak etmişdir.

**“Qəbələ”**